

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (23.707)

13 aprel 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edilib.

Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalarından biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev deyib ki, yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. “İsgəndər M” raketinin qalıqlarına baxan Prezident İlham Əliyev deyib ki, hər kəs gəlsin, görsün, Şuşanı, bizim qədim şəhərimizi Ermənistan “İsgəndər-M” raketləri ilə məhv etməyə çalışırdı.

Hərbi Qənimətlər Parkı ilə tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, hərbçilərə bu gün dövlətimizin yüksək hərbi mükafatları təqdim edilir. Qeyd olunub ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir.

Prezident İlham Əliyev hərbçiləri, həm Qələbə, həm də yüksək mükafatlar münasibətilə bir daha ürəkdən təbrik edib.




İcmal

## Dövlətçilik əzmi, milli dəyərlərə və insan amilinə söykənən siyasi iradə və qətiyyət Naxçıvanın hərtərəfli inkişafının təməlini təşkil edir

### Bunu ötən ayın ümumi mənzərəsindən də aydın görmək mümkündür

*Böyük iftixar və qürur hissi ilə qeyd olunmalıdır ki, qədimliyi qədər müasirliyi ilə də seçilən, dinamik, çoxşaxəli inkişaf strategiyası ilə dünyada tanınan Naxçıvan yeni inkişaf mərhələsini yaşamaqdadır. Ümummilli liderin dövlətçilik siyasətinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən uğurla həyata keçirilməsi sayəsində buna nail olunmuşdur. Bu mənada, ölkə Prezidenti cənab İlham Əliyevin* ***“Bizim inkişafımızın təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Biz bu siyasətə sadiqik, tutduğumuz yoldan dönməyəcəyik, daim irəli gedəcəyik”*** *ideyası muxtar respublikamızın timsalında bütün reallıqları ilə öz təsdiqini tapmışdır. Ötən ayın ümumi mənzərəsi bunu deməyə bir daha əsas verir.*

#### Yüksəkkeyfiyyətli yayım muxtar respublikanın uğurlu media siyasətinin əsas prioritetini təşkil edir

Muxtar respublikada diyarımızın qədim tarixinin, müasir inkişaf dinamikasının, milli dəyərlərimizin və zəngin turizm potensialının düzgün təbliği, eyni zamanda gənc nəslin vətənpərvər və milli dəyərlərə sadiq yetişməsi üçün məqsədyönlü media siyasəti aparılır. Mediaya yeni yanaşmanın, Naxçıvan mediasının, eləcə də Naxçıvan teleradiosunun, elektron medianın müasir dövrün tələbləri səviyyəsində inkişafının nəticəsidir ki, muxtar respublikada informasiya blokadası tamamilə aradan qaldırılmış, informasiya təminatı sahəsində tarixi nailiyyətlər qazanılmışdır. Müasir dövrdə rabitə və informasiya texnologiyalarının qarşısında duran əsas məsələlərdən biri də əhalini keyfiyyətli teleradio yayımları ilə təmin etməkdir. Son illərdə muxtar respublikamızda bu sahədə mühüm addımlar atılmış, müasir texnologiyaların tətbiqi diqqət mərkəzində saxlanılmışdır. Görülən işlərin nəticəsidir ki, bu gün Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən teleradioların, eləcə də ölkə və dünya televiziya və radiolarının yayımı muxtar respublikanın yaşayış məntəqələrinin 100 faizini əhatə edir. Bu məqsədlə Duzdağ, Ordubad və Şərurda Radio-Televiziya Ötürücü stansiyalarında müasir texnologiyalara əsaslanan radio-televiziya ötürücü sistemləri quraşdırılıb. Naxçıvan Muxtar Respublikası “Radio-Televiziya Ötürücü Mərkəzi” publik hüquqi şəxs tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində yayımlanan DVB-T standartlı rəqəmsal televiziya proqramlarının və FM bandlı radio proqramlarının yayım əhatə dairəsinin genişləndirilməsi, efir məkanının keyfiyyətli və dayanıqlı yayımla təmin olunması üçün də müntəzəm olaraq işlər görülür. Təsadüfi deyil ki, məhz Cənubi Qafqazda SFN təkkanallı rəqəmsal televiziya şəbəkəsi ilk dəfə muxtar respublikamızda tətbiq olunub. Muxtar respublikada 6 ötürücü, 44 azgüclü verici stansiya fəaliyyət göstərir. Ölkədə ilk dəfə olaraq Naxçıvan Dövlət Televiziyasının IP və internet televiziyaları üzərindən HD formatında yayımı təmin olunub. Bu gün ən müasir yayım və çəkiliş sistemlərinə malik olan Naxçıvan televiziyası və radiosu 20 saat bütün dünyaya yayımlanır, 140-dan çox ölkədə izlənilir. Ali Məclis Sədrinin “Universitet” televiziyasının muxtar respublika üzrə yayımının təmin olunması barədə verdiyi tapşırıqlar icra olunmuş, “Universitet” televiziyasının fevral ayının 24-dən etibarən muxtar respublikada yüksək keyfiyyətlə yayımına başlanılmışdır. Bütün bunlar muxtar respublikanın informasiya blokadasının yarılması kimi mühüm hadisə ilə nəticələnmişdir.



Muxtar respublikada telekommunikasiya sahəsinin müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən çoxsaylı tədbirlərin davamı olaraq mart ayının 11-də Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni binada yaradılan şəraitlə tanış olmuşdur. Muxtar respublika rəhbəri yeni stansiyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək bildirmişdir ki, yeni ötürücü stansiyanın istifadəyə verilməsi ilə Sədərək rayonu ərazisində teleradio yayımının keyfiyyəti yaxşılaşacaqdır. Qeyd olunmuşdur ki, teleradio yayımı əhəmiyyətli məsələdir. Ona görə də ölkədaxili televiziyaların yayımının təşkili, eyni zamanda milli-mənəvi dəyərlərimizi kənar təsirlərdən qorumaq üçün muxtar respublikada müasir ötürücü stansiyalar qurularaq teleradio yayımı həyata keçirilir.

Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada ötən illərdə bu sahədə xeyli işlər görülmüş, Sədərəkdə avtomat köklənmə sistemi ilə təchiz edilmiş FM verici avadanlıqları quraşdırılmışdır. Bu avadanlıqlar bütün muxtar respublika ərazisində qurulmalıdır. Naxçıvan dağlıq ərazidə yerləşir. Buna görə də monitorinqlər aparılmalı, hansı ərazidə siqnallar zəifdirsə, paket şəklində təqdim olunan kanallar məhduddursa, həmin ərazilərdə tədbirlər görülməlidir ki, əhali ölkəmizdə yayımlanan televiziya və radio verilişlərinə baxa və dinləyə bilsin. Bunun üçün lazımi şərait vardır. Dövlət tərəfindən bu işlərin həyata keçirilməsinə lazımi dəstək göstərilir. Aid təşkilatlar da bu işlərə məsuliyyətlə yanaşmalı, vericilər müasir tələblərə cavab verməli, avtomatik köklənmə sistemləri ilə təmin olunmalı, muxtar respublika ərazisində yayım keyfiyyəti yüksəldilməlidir”.***

Muxtar respublika rəhbəri vurğulamışdır ki, Sədərəkdə istifadəyə verilən stansiyanın müasir avadanlıqlarla təmin olunması həm də yeni mütəxəssislərin yetişməsi və onların işə müasir yanaşmasının təmin edilməsi baxımından əhəmiyyətli olduğu üçün qurulub-yaradılanlar qorunmalı, işə məsuliyyətlə yanaşılmalı, ərazidə keyfiyyətli teleradio yayımı həyata keçirilməlidir.

Stansiyaya baxış zamanı məlumat verilmişdir ki, Sədərək Radio-Televiziya Ötürücü Stansiyasında muxtar respublikada ilk dəfə olaraq 12 kanalın bir monitorda izlənməsinə imkan verən proqram təminatlı “Multiview” sistemi istismara verilmişdir. Stansiyada 2 enerji tənzimləyicisi, generator, rəqəmsal televiziya vericisi, İtaliyanın “Elenos” şirkətinin istehsalı olan avtomatik köklənmə sistemi ilə təchiz edilmiş 3 yeni FM verici, fiber-optik sonlandırma avadanlıqları, “Azercell”, “Naxtel”, “Azərconnect” mobil operatorlarının baza stansiyaları quraşdırılmışdır. 75 metrlik qüllədə isə mobil operatorların baza stansiyalarının, rəqəmsal televiziya və radio vericilərinin anten-fider sistemləri, radiorele linklərinin verici-qəbuledici avadanlıqları qoyulmuşdur. Ali Məclisin Sədri muxtar respublikada televiziya və radio yayımlarının keyfiyyətinin artırılması sahəsində işlərin davam etdirilməsi və yeniliklərin tətbiqi barədə tapşırıqlar vermişdir.

#### Gömrük işinin daha səmərəli və müasir standartlara uyğun şəkildə təşkilinə növbəti töhfə

Dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə muxtar respublika gömrük sistemində müasir infrastruktur və möhkəm maddi-texniki baza formalaşdırılıb. 2007-ci ildə Culfa, 2009-cu ildə Şahtaxtı, 2012-ci ildə isə Naxçıvan Şəhər Gömrük idarələri üçün müasir gömrük kompleksləri, 2014-cü ildə Naxçıvan Hava Nəqliyyatında Gömrük İdarəsi üçün yeni inzibati bina, 2015-ci ildə “Naxçıvanterminalkompleks” Birliyi üçün inzibati bina və anbar kompleksinin istifadəyə verilməsi, eləcə də gömrük laboratoriyasının yaradılması xidmətin müasir tələblər səviyyəsində qurulmasına səbəb olub. 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin inzibati binası əsaslı şəkildə təmir edilib. Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün 18 hektara yaxın ərazidə beynəlxalq standartlara uyğun inşa olunan müasir kompleksin tikinti işləri yekunlaşdırılıb.

Son illər muxtar respublikamızda gömrük işinin daha səmərəli və müasir standartlara uyğun şəkildə təşkili istiqamətində görülən ardıcıl tədbirlər, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun inkişaf etmiş dünya ölkələrinin praktikasına uyğun şəkildə yenidən formalaşdırılması gömrük xidmətinin keyfiyyətinin artmasına imkan yaradır.

Naxçıvan Muxtar Respublikasında gömrük infrastrukturunun yenilənməsi və maddi-texniki bazanın müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleks tikilir. Martın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kompleksdə görülən işlərlə maraqlanmışdır. Məlumat verilmişdir ki, ümumi sahəsi 104 min kvadratmetr olan kompleksdə yaradılacaq müasir şərait sərhəd və gömrük xidmətinin yüksək səviyyədə təşkilinə imkan verəcək. Rahat və sürətli keçidin təmin olunması üçün giriş və çıxış istiqamətlərinin hər birində istiqamətverici monitorlar olan 6 hərəkət zolağı yaradılmışdır.

Kompleksdə gömrük nəzarəti və rəsmiləşməsi “bir pəncərə” prinsipinə uyğun həyata keçiriləcək, “Yaşıl kanal” və “Qırmızı kanal” buraxılış sistemləri tətbiq olunacaqdır. “Qırmızı kanal”a daxil olan minik nəqliyyat vasitələrinin yoxlanılması üçün 3 zolaqda maşınaltıbaxış sistemi qurulub. Sərnişin keçid zalında giriş və çıxış istiqamətlərinin hər birində “Qırmızı kanal”la bəyan edilməli olan yüklərin gömrük nəzarətindən keçirilməsi üçün 2 müasir rentgen-baxış qurğusu, həmçinin şəxslərin üzərinin təkrar yoxlanılması üçün “body-scan” qurğusu vardır. “Yaşıl kanal” buraxılış sistemindən gömrük sərhədindən keçirilən əl yükündə və müşayiət olunan baqajında yazılı formada bəyan edilməli mallar olmayan sərnişinlər istifadə edəcəkdir. Giriş və çıxış istiqamətlərində pasport 4 məntəqədə

Ardı 2-ci səhifədə

həyata keçiriləcəkdir. Anbarlarda yüklərin yoxlanılması üçün 3 rentgen-nəzarət qurğusu, yoxlama-baxış sistemləri bölməsində giriş istiqaməti üzrə yük və minik nəqliyyat vasitələrinə gömrük nəzarətini həyata keçirmək üçün 2 X-Ray tipli rentgen-nəzarət qurğusu quraşdırılmışdır. Gömrük nəzarəti zonasında yoluxucu xəstəliklərə qarşı mübarizə məqsədilə müasir avadanlıqlar quraşdırılmış, tibb məntəqəsi yaradılmışdır. Kompleksin ərazisində yüksək görüntü keyfiyyətinə malik olan 90 kameralıq videonəzarət sistemi qurulmuşdur. Ali Məclisin Sədri kompleksdə işlərin keyfiyyətlə başa çatdırılması və xidmətin müasir tələblər səviyyəsində təşkili ilə bağlı tapşırıqlar vermişdir.

### *Üçrəngli bayrağımız tarixi qələbəmizin, ərazi bütövlüyümüzün toxunulmazlıq rəmzi, şəhidlərimizin ruhuna dərin ehtiram nümunəsi kimi düşmənə gözdağı, alınmaz qala olan Sədərəkdə qürurla dalğalanır*

Azərbaycanda dövlət rəmzləri və atributları daim uca tutulur, ölkəmizin hər yerində Bayraq meydanları yaradılır. Fəxarətlə deyə bilərik ki, bu gün üçrəngli bayrağımız 30 ilədək işğala məruz qalmış, Vətən müharibəsindəki tarixi Qələbəmiz nəticəsində azad edilmiş əzəli Azərbaycan torpaqlarında – Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Hadrutda, Suqovuşanda, Şuşada, digər kənd və qəsəbələrimizdə xalqımızın tarixi birlik və qəhrəmanlıq simvolu olan Xudafərin körpüsü üzərində qürurla dalğalandırılır. Ulu öndərin dövlət atributlarına yüksək ehtiramla yanaşma ideyaları qədim və zəngin dövlətçilik tarixinə malik diyarımızda da sədaqətlə yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır”.*** Martın 11-də Sədərək rayonunda Bayraq Meydanı istifadəyə verilmişdir. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, yaradılan şəraitlə tanış olmuşdur.

***“Sədərək rayonundakı Bayraq Meydanında üçrəngli bayrağımız İkinci Qarabağ müharibəsində qazanılan qələbə və şəhidlərin xatirəsinə qaldırılır”***, – deyən Ali Məclisin Sədri qurğunu işə salmış, üçrəngli dövlət bayrağımız əbədi yüksəkliyə ucalmışdır. Məlumat verilmişdir ki, Sədərək rayonunda sahəsi 6 min 312 kvadratmetr olan Bayraq Meydanının tikintisinə 2020-ci ilin aprel ayında başlanılmışdır. Bayraq dirəyinin hündürlüyü 33,5, bayrağın eni 8, uzunluğu isə 16 metrdir. Bayraq dirəyinin oturacağı sianid plitələrlə üzlənmişdir. Meydanda geniş abadlıq işləri aparılmışdır.

Ali Məclisin Sədri demişdir ki, Sədərək rayon kimi formalaşır, əhalinin yaşayışı yaxşılaşır, imkanlar artır. Dəmirçi kəndinin rayona birləşdirilməsi kadr və investisiya potensialını yaxşılaşdıracaq, rayonun gəlirlərini artıracaqdır. Bütün bunlar Sədərək rayonunun inkişafına xidmət edir. Burada qəsəbənin qurulması, su-kanalizasiya sistemlərinin çəkilməsi, əhalinin içməli su ilə təminatı, infrastrukturun yenilənməsi, əkinəyararlı olmayan torpaqların əkin dövriyyəsinə qatılaraq istifadəyə verilməsi muxtar respublika üçün əhəmiyyətli olan bu rayonun inkişafına səbəb olmuşdur. Ali Məclisin Sədri Bayraq Meydanında abadlığa və təmizliyə nəzarət olunması, yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

### *Qəhrəmanlıq mücəssəmələrinin ruhuna sonsuz ehtiram nümunəsi*

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan və zəfərlə başa çatan Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri də Qarabağda gedən hərbi əməliyyatlarda böyük şücaət göstərmiş, torpaqlarımızın işğaldan azad olunması üçün canlarından keçərək şəhidlik zirvəsinə yüksəlmiş, qazi olmuşlar. Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə yanaşı, Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbçilər yetişdirən ixtisas hazırlığı kurslarını uğurla başa vuran gənclərimiz də bu müharibədə igidlik və qəhrəmanlıqları ilə fərqlənmişlər. Onların göstərdiyi şücaət, hərbçilərimizin ərazi bütövlüyümüz uğrunda nümayiş etdirdiyi əzmkarlıq isə müzəffər hərb tariximizə yazılmışdır. Hərbçilərimiz göstərdikləri rəşadətə görə Ali Baş Komandan tərəfindən “Vətən müharibəsi qəhrəmanı” fəxri adına layiq görülmüş, orden və medallarla təltif edilmişlər. Muxtar respublikamız dövlət-xalq-ordu birliyinin parlaq təzahürü olaraq Vətənə və xalqa xidmətin ən ali məqamına – şəhidlik zirvəsinə yüksələnlərə böyük ehtiram nümayiş etdirməklə də əsl vətənpərvərlik nümunəsi göstərmişdir. Martın 18-də Vətən müharibəsi zamanı itkin düşən şəhidimiz Abdullayev İntiqam Allahverdi oğlunun cənazəsi muxtar respublikaya gətirilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, hərbçilər və şəhidin ailə üzvləri tədbirdə iştirak etmişlər. Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiətilə mərasim yerinə gətirilmiş, şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirmişlər. Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açılmış, “Qurani-Kərim”dən ayələr oxunmuş, şəhid cənazəsinin önündən keçilmişdir. Şəhidin cənazəsi doğulduğu kəndə yola salınmışdır. Ali Məclisin Sədri şəhidin ailə üzvləri ilə görüşərək onlara başsağlığı vermişdir.

### *Sarsılmaz Azərbaycan-Türkiyə birliyi və çoxcəhətli tərəfdaşlığında doğma diyarımızın da müstəsna rolu vardır*

Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan iki qardaş xalqın milli-siyasi həmrəyliyinə söykənən Azərbaycan-Türkiyə əlaqələri, ölkələrimiz arasındakı sarsılmaz strateji tərəfdaşlıq daha da möhkəmlənməkdədir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı uğurlu əməkdaşlıq da bu tərəfdaşlığa öz töhfəsini verməkdədir. Hazırda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələr bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilir. Xüsusilə ordu quruculuğu, iqtisadi-ticarət, nəqliyyat, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Ötən ilin noyabr ayında Türkiyənin Baş naziri olmuş Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətinin Naxçıvana səfəri, Türkiyə Cümhuriyyətinin qurucusu, Türk dünyasının böyük siyasi lideri Mustafa Kamal Atatürkün anım günü, 30 ilədək işğal altında olan torpaqlarımızın azad olunduğu, tarixi zəfər qazandığımız bir gün – noyabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü, sarsılmaz Azərbaycan-Türkiyə birliyi və çoxcəhətli tərəfdaşlığında Azərbaycanın ulu diyarı Naxçıvanın müstəsna siyasi-strateji rolunu bir daha təsdiqləmişdir. Martın 18-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Türkiyə Respublikasının Ticarət nazirinin müavini və Gömrük İdarəsinin sədri Rza Tuna Turaqayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri qonaqları salamlamış, səfərin Çanaqqala zəfərinin və Çanaqqala şəhidlərinin anım gününə təsadüf etdiyini diqqətə çatdırmış, Çanaqqala və Qarabağ şəhidlərinin xatirəsinə ehtiramını bildirmişdir. Muxtar respublika rəhbəri hər iki ölkə prezidentlərinin iradəsinə uyğun olaraq Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının ilbəil möhkəmləndiyini qeyd edərək demişdir ki, Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi üçün müasir kompleksin qurulması ikitərəfli əlaqələrə verilən önəmin ifadəsidir. Ali Məclisin Sədri regionda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirmiş, muxtar respublika ilə Türkiyə arasında ikitərəfli ticarət əlaqələrinin perspektivlərini dəyərləndirmişdir.

Türkiyə Respublikasının Ticarət nazirinin müavini və Gömrük İdarəsinin sədri Rza Tuna Turaqay səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlıq etmiş, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı tarixi qələbənin və əldə olunmuş razılaşmanın region üçün əhəmiyyətini vurğulamışdır. Gələcək əməkdaşlıq barədə danışan Rza Tuna Turaqay Naxçıvan Muxtar Respublikasının inkişafının ikitərəfli münasibətlərə töhfə verdiyini bildirmişdir.

### *Aqrar sahənin inkişafına, ərzaq məhsulları istehsalının artırılmasına dövlət dəstəyi*

Muxtar respublikada kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması sahəsində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 29 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət Proqramı” bu baxımdan mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait torpaq mülkiyyətçiləri və fermerlərin, eləcə də ailə təsərrüfatçılarının bu sahəyə marağını artırır. Digər tərəfdən, hər il müasir meliorasiya-irriqasiya sistemləri qurulur, bu hesaba yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Aqrar sahənin inkişafına, ərzaq məhsulları istehsalının artırılmasına və itkisiz məhsul yığımına nail olmaq məqsədilə torpaq mülkiyyətçilərinin və fermerlərin müasir kənd təsərrüfatı texnikaları ilə təmin olunmasında diqqətdə saxlanılır. Yeni innovativ texnologiyaların tətbiqi həm də əkinlərin optimal müddətdə aqrotexniki qaydalara uyğun aparılmasına, məhsulun vaxtında yığılmasına, məhsuldarlığın yüksəldilməsinə, əl əməyinin yüngülləşdirilməsinə və məhsul istehsalına çəkilən xərclərin azalmasına, bazarda yerli məhsulların üstünlük təşkil etməsinə, ümumilikdə isə ərzaq təhlükəsizliyinin təmin olunmasına imkan verir. Qeyd etmək yerinə düşər ki, son illər muxtar respublikaya 3282 texnika və texnoloji avadanlıq alınıb gətirilib, onlardan 2632-si lizinq yolu ilə sahibkarlara verilib.

Martın 31-də “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnika və avadanlıqlarının təqdimatı olub. Tədbirdə iştirak edən Ali Məclisin Sədri çıxış edərək kənd təsərrüfatının iqtisadi inkişafda əhəmiyyətindən, ölkəmizdə bu sahənin inkişafının diqqət mərkəzində olmasından bəhs edib. Qeyd olunub ki, ölkə Prezidentinin müvafiq sərəncamları ilə kənd təsərrüfatının bütün sahələri üzrə güzəştlər tətbiq olunmuş, aqrar sahədə kompleks tədbirlər həyata keçirilmişdir. Bu gün təqdimatı keçirilən kənd təsərrüfatı texnikaları da ölkəmizdə kənd təsərrüfatının və bu sahədə sahibkarlığın inkişafına dəstək, eyni zamanda ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfədir. Muxtar respublikada da kənd təsərrüfatının inkişafına böyük diqqət və qayğı göstərildiyini vurğulayan Ali Məclisin Sədri deyib: ***“Hər bir texnika bir ailənin iş yeri deməkdir. Hər bir texnika məhsul istehsalı, məhsuldarlığın artırılması deməkdir. Ona görə də texnikalar qorunmalı, onlar uzun müddət muxtar respublikanın kənd təsərrüfatı sahəsində istifadə edilməlidir”.*** Muxtar respublika rəhbəri yeni texnikaların alınıb gətirilməsində əməyi olanlara təşəkkürünü bildirib.

Məlumat verilib ki, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin özündə və rayon bazalarında yerləşən bitkiçilik və heyvandarlıq apteklərində kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan dərmanlar satışa çıxarılır. Dərmanların istifadə qaydası haqqında torpaq mülkiyyətçilərinə və fermerlərə əvvəlcədən məlumat verilir. Cəmiyyətin anbarında kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri də vardır.

Ali Məclisin Sədri kənd təsərrüfatında yeni innovasiyaların tətbiqinin əhəmiyyətini vurğulayıb, texnikalarla təminat və texniki qulluq işinin diqqətdə saxlanılması, əkin sahələrinə nəzarət olunması, yerlərdə baytarlıq apteklərinin yaradılması, Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti ixtisası tələbələrinin bu işlərə cəlb edilməsi, alınan texnikalardan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin özünüməşğulluq proqramına cəlb edilmiş ailə təsərrüfatlarına da təqdim edilməsi barədə tapşırıqlar verib.

*Ötən ayın ümumi mənzərəsi bir daha təsdiq edir ki, muxtar respublikada davamlı inkişafa nail olmanın, qarşıya qoyulan məqsədlərə vaxtında və uğurla çatmanın başlıca səbəbi ümummilli liderimizin dövlətçilik ideyalarına sarsılmaz sədaqət, vətənpərvərləşmə, müasirləşmə, qurub-yaratmaq amalı ilə yorulmaz fəaliyyətdir. Ali Məclis Sədrinin də dediyi kimi:* ***“Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir”.***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Naxçıvan Şəhər Ağsaqqallar Şurasının konfransı olub



***Konfransa şuranın üzvü Davud Süleymanov sədrlik edib. Gündəlik təsdiq edildikdən sonra Naxçıvan Şəhər Ağsaqqallar Şurası İdarə Heyətinin üzvü Əli Həsənovun hesabat məruzəsi dinlənilib.***

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu gün muxtar respublikada bütün sahələrdə uğurlar əldə edilib. Qazanılan nailiyyətlər Naxçıvan şəhər ağsaqqallarının, ahıl vətəndaşların sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub.

Vurğulanıb ki, şura hesabat dövründə fəaliyyətini Naxçıvan şəhərinin hərtərəfli inkişafının təbliğ olunması istiqamətində qurub, milli və mənəvi dəyərlərimizin qorunması, eləcə də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində bir sıra işlər görüb.

Konfransda idarə heyətinin 5 nəfərdən ibarət yeni tərkibi seçilib. Naxçıvan Şəhər Ağsaqqallar Şurasının üzvü İmran Əliyev Tofiq Seyidovun şuranın sədrliyinə namizədliyini irəli sürüb. Təklif səsə qoyulub və qəbul olunub. Tofiq Seyidov göstərilən etimada görə minnətdarlığını bildirərək qeyd edib ki, şura bundan sonra da fəaliyyətini günün tələbləri səviyyəsində quracaq, gənclərin vətənpərvərlik ruhunda böyüməsi, milli dəyərlərimizin yaşadılması istiqamətində ardıcıl iş aparacaqdır.

Konfransda Naxçıvan Şəhər Ağsaqqallar Şurasının nəzarət-təftiş komissiyasının yeni tərkibi müəyyən olunub və 3 nəfər komissiyanın üzvlüyünə qəbul edilib. Şəmil Novruzov nəzarət-təftiş komissiyasının sədri seçilib.

Sonra müzakirə olunan məsələlərlə əlaqədar hazırlanmış qərar layihəsi oxunub və səs çoxluğu ilə qəbul olunub.

Konfransda Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov və Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva çıxış edərək Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədrini, idarə heyətini və nəzarət-təftiş komissiyasının yeni seçilən üzvlərini təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

**Səbuhi HƏSƏNOV**

## Gənclərin məşğulluqlarının təmin edilməsi ilə bağlı tədbir keçirilib

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası istiqamətində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə silsilə tədbirlər keçirilir.

Növbəti tədbir Babək rayonu üzrə hərbi xidmətdən tərxis edilmiş gənclərin məşğulluqlarının təmin olunması ilə bağlı Babək rayonunda olub. Çıxış edənlər hərbi xidmətdən tərxis edilən şəxslərin vakant iş yerlərinə göndərilməsi, müvafiq peşə və ixtisaslara yiyələnməsi üçün peşə hazırlığı kurslarına, həmçinin ictimai işlərə cəlb olunması, onların əmək bazarına inteqrasiyası, özünüməşğulluqlarının həyata keçirilməsi ilə bağlı məlumatlar verib. Diqqətə çatdırılıb ki, müxtəlif peşələrə yiyələnmək istəyənlər qeydiyyata alınaraq Naxçıvan Regional Peşə Tədris Mərkəzinə təhsil almaq üçün göndəriləcəklər.

Gənclər onlara təqdim edilən boş iş yerləri ilə tanış olublar. Gənclərin vakant iş yerlərinə, peşə hazırlığı kurslarına, haqqıödənilən ictimai işlərə göndərilməsi məqsədilə qeydiyyatı aparılıb.

Sonda mövzu ətrafında suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Yeni nəşrlər

# Naxçıvan diyarının salnaməsi

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarı qədim tarixi, dövlətçilik ənənələri, zəngin tarix-mədəniyyət abidələri ilə yanaşı, həm də əsrarəngiz təbiəti ilə həmişə diqqəti cəlb etmiş, insanların böyük marağına səbəb olmuşdur. Şumer əfsanələrinə görə Nuh Peyğəmbərin əfsanəvi gəmisi Naxçıvan ərazisindəki Gəmiqaya yüksəkliyində yerə enmiş, onlar buradan Naxçıvan ərazisinə yayılmışlar. Naxçıvan şəhərinin adı da buradan yaranmış, yəni Nuhun tərəfdarlarının quruya çıxdığı yer kimi xarakterizə olunur. Buna görə də Naxçıvan diyarı müqəddəs bir məkan kimi səciyyələndirilir. Onu müqəddəs edən başqa bir amil isə bu diyarda Quranın "Kəhf" ("Mağara") surəsində adıçəkilən Əshabi-kəhf (Mağara adamları) ziyarətgahının olmasıdır.*




Naxçıvan ən qədim sivilizasiya məskənlərindən biri, 5-7 minillik ilkin şəhər mədəniyyəti olan, 500-300 min il bundan əvvələ aid qədim insan yaşayış məskənləri ilə seçilən, Naxçıvanşahlıq, Azərbaycan Atabəylər dövləti, Naxçıvan tüməni, Naxçıvan xanlığı, Araz-Türk Respublikası, Naxçıvan SSR, Naxçıvan MSSR və Naxçıvan Muxtar Respublikası kimi dövlət qurumları ilə dövlətçilik ənənələrini yaşadan və yüksək inkişaf səviyyəsinə malik olan əsrarəngiz bir diyardır. Bu diyar Dədə Qorqud yurdu, oğuz türklərinin məskunlaşdığı ərazidir.



Heydər Əliyev Sarayı

"Naxçıvan ərazicə kiçik, məzmunca böyük bir diyardır". Bu diyar tarix və mədəniyyət abidələri ilə zəngindir. Muxtar respublika ərazisində 1220-yə yaxın abidə qeydə alınmış, pasportlaşdırılmış, onlara ən yüksək səviyyədə qayğı göstərilir. Tarix və mədəniyyət abidələri özlərinin ikinci xoş günlərini yaşayırlar.

Təbiəti etibarilə də Naxçıvan əsrarəngiz, cazibədar və zəngin bir diyardır. Belə ki, dünyada mövcud olan on bir iqlim qurşağından yeddisi burada müşahidə olunur. Bu isə kontinental iqlimə, landşaft müxtəlifliyinə, flora və fauna zənginliyinə səbəb olur.



Su gələr, axar gedər...

Son illərdə bütün bunlara dövlət səviyyəsində ən yüksək diqqət və qayğı göstərilməklə yanaşı, onların öyrənilməsi, tədqiq edilməsi sahəsində də uğurlu tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublikanın hərtərəfli inkişafına göstərdiyi diqqət diyarın dayanıqlı və davamlı inkişafına səbəb olmuşdur. "Tarixi yaratmaq, tarix yazmaq qədər çətindir", – deyən müdrik fikrinin real ifadəsini Naxçıvanın nümunəsində bariz görmək mümkündür. Naxçıvan diyarında tarix yaradılır, tədqiq edilir və geniş ictimaiyyətə tanıdılır. Muxtar respublikanın tanıdılması istiqamətində çoxsaylı kitab və monoqrafiyalar, fotoalbomlar, illüstrativ materiallar... hazırlanır və nəşr edilir.

Bu günlərdə yeni bir nəşr – "Mənim Naxçıvanım" layihəsi əsasında hazırlanmış "Naxçıvan – dörd fəsildə" kitabı ictimaiyyətin, Naxçıvan sevərlərin geniş marağına səbəb olmuşdur. Kitabda Naxçıvan diyarı fəsillər üzrə fotolarda və abidələrdə öz əksini tapmışdır. Nəşr Naxçıvan Muxtar Respublikasını tanıtmaq sahəsində çox uğurlu bir addımdır. Azərbaycanın gözəllik diyarı olan muxtar respublikanı əhatə edən təbii gözəlliklərdən, mədəni-tarixi abidələrdən və mədəniyyətindən məlumat verən sənət əsəridir. Naxçıvanın unikal gözəllikləri fotoların vasitəsilə peşəkarlıqla təqdim edilir.



Əlincəçay Xanəgahı

Kitabda ön söz yazan akademik İsa Həbibbəyli Naxçıvanın tarixi abidələri və təbiəti haqqında dəyərli ümumiləşdirmələr aparmış, "Naxçıvan: dörd fəsildə" albomunu Naxçıvan diyarının, tarixinin və təbiətinin cazibədar fotosalnaməsi kimi səciyyələndirmişdir.

Kitab-fotoalbom Naxçıvanın bir növ rəmzinə çevrilmiş Haçadağın fotosu və yığcam məlumatla başlayır: "Haçadağ Culfa rayonu ərazisində, Əlincəçay vadisindədir. Naxçıvan bölgəsinin yenilməzlik, ucalıq rəmzidir. Şumer mənşəli qədim əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi bu dağın zirvəsinə toxunub, onu yarır. Zirvəsinin formasına görə ona Haçadağ deyilir".

Kitab-albomda Naxçıvanın yaz fəsli haqqında yığcam məlumat verilməklə yanaşı, unikal fotolardan, maraqlı bənzətmələrdən də istifadə edilmişdir: "Bahar – təbiətin ən gözəl qızı", "Bənəniyar su sonasının keşikçisi – Haçadağ", "Haçadağ – torpağın buludu yaran heykəli", "Bir üzü yaz, bir üzü ayaz Göygöl...", "Günəş bu yerlərdə rəsm çəkir". Naxçıvanın yaz fəslinə aid çəkilmiş 28 foto yüksək peşəkarlıqdan xəbər verir. Burada Naxçıvanın flora və faunası, Göygöl, Zəngəzur Milli Parkı, Araz və Arpaçay haqqında elmi məlumatlara da yer verilmişdir.



Bərəkətin mənbəyi Arpaçay

"İlin ən isti və işıqlı fəsli" olan Naxçıvan yayının özünəməxsus xüsusiyyətləri təhlil edilməklə yanaşı, yay haqqında əhəmiyyətli ümumiləşdirmələr də aparılır. Naxçıvanın yay fəslinə aid 22 unikal foto öz cazibədarlığı və gözəlliyi ilə heyrət doğurur. Nəhəcir dağı, Əfsanəvi Haçadağ, Arpaçay vadisi, Dağ mənzərələri, Dağların ovcunda Göygöl kimi fotoları adi gözlə bu gözəllikdə görmək mümkün deyildir. Fotoqraf Hüseyn Bağırov müxtəlif rakurslardan və günün müxtəlif vaxtlarında bu gözəlliyi görə bilmiş, ustalıq və yüksək peşəkarlıqla çəkə bilmişdir.



Pəzməri şəlaləsi

Kitabın üçüncü hissəsi "Abidə" adlanır. Burada muxtar respublikada Ali Məclis Sədrinin əsl vətəndaş yanğısı ilə çox böyük əhəmiyyət verdiyi, qayğısına qaldığı tarix və mədəniyyət abidələrindən, onlar haqqında bəzi məlumatlardan və abidələrin fotolarından bəhs olunur. İlk növbədə, Heydər Əliyev Muzeyi, onun çox gözəl görünüşü təqdim olunur. Bu fəsildə türbələr, körpülər, muzeylər, qalalar, saraylar, arxeoloji abidələr, məscid və ziyarətgahlar, mağaralar, mədəniyyət və memarlıq abidələri, elm və səhiyyə obyektlərinin həm fotoları, həm də onlar haqqında əhəmiyyətli məlumatlar verilir. Məlumdur ki, Ali Məclis Sədrinin sərəncamı ilə muxtar respublika ərazisində aşkar edilmiş 1220 tarix və mədəniyyət abidəsi pasportlaşdırılmış, 70-dən çox tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur. Əlincə qalasından tutmuş körpülərə, türbələrdən mədəniyyət abidələrinə qədər bərpa və restavrasiya edilmişdir. Gəmiqayada, Əlincəqalada, Naxçıvanqalada... muzeylər yaradılmışdır. Başqa tarix və mədəniyyət abidələrimiz kimi, bunlar da respublika sakinlərinə, qonaqlara, turistlərə yüksək səviyyədə təqdim olunur. Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, ***"Naxçıvan ərazisində həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir..."***.

Nəşrdə müasir memarlıq abidəsi olan Saat Meydanının ecazkar şəkli, Gəmiqayadakı qayaüstü təsvirlər, əfsanəvi Əshabi-kəhfdən də bəhs edilməklə bərabər, nadir fotolar da verilmişdir.

Kitab-fotoalbomun dördüncü və beşinci hissələri Naxçıvanın payızı və qışına həsr edilmiş, həmin fəsillərə aid orijinal fotolar çəkilmiş və kitaba daxil edilmişdir. Payıza qızılı payız deyilir və fotoqrafiya bu fəslin gözəlliklərini əbədiləşdirmək üçün ən yaxşı vasitədir. İlin bütün fəsillərində insanı özünə cəlb edən Naxçıvanın payızı bir başqa aləmdir. Bu fəsildə Naxçıvanın təbiəti rənglər donuna bürünür, bu gözəlliklərə insanlar baxmaqdan doymur. Culfa dağları, Əzəmətli və əyilməz Əlincə, Naxçıvan ehramları, Payız peyzajları kimi təqdim edilən 18 payız foto nümunələri adamı riqqətə gətirir, diyarımızın nə qədər zəngin və ecazkar olduğunu göstərir. Çəhrayı rəng Naxçıvan payızının ən üstün rəng çalarlarından biridir. Bununla əlaqədar kosmonavt Aleksey Leonov Naxçıvanda olarkən heyrətini gizlədə bilməyərək demişdir: "Kosmosdan Yer kürəsi son dərəcə gözəl, çəhrayı bir rəngdə görünür. Yerə qayıdandan sonra hara yolum düşürdüsə həmin rəngi axtarırdım. Nəhayət, Naxçıvanda tapdım. Kosmosdan baxanda bütün Yer kürəsi Naxçıvanın torpağının rəngində görünür".

Naxçıvan ərazisində qışın da gözəlliyi var. Bu fəsildə yorulan təbiət, sanki özünü məzuniyyətə çıxarır. Bəyaz rəngin palitrası qış dövründə Naxçıvan ərazilərinə xüsusi gözəllik verir. Qışın bütün atributları burada da özünü göstərir. Qışa xas olan 16 foto Naxçıvanda qış fəslinin gözəlliklərini bir daha əyani olaraq göstərir. Göygölün, Ağdərənin, Batabatın, Batabat gölünün, Dumanlı dağların qış mənzərələri bəyaz rəngin Naxçıvan gözəlliklərini nümayiş etdirir.


Bəyaz naxışlı Göygöl

Kitabda çoxsaylı bənzətmələr, görkəmli şairlərimizdən gətirilən şeir nümunələri, bunların təbiət təsvirlərinə uyğun seçilməsi, iqlim qurşaqları, landşaft zənginliyinin fotoaparatın obyektinə yüksək səriştə və peşəkarlıqla gətirilməsi – bütün bunların hamısı Naxçıvanımızın tanıdılmasına xidmət edir.

*Azərbaycanın qədim diyarı Naxçıvan, onun təbiətinin tarix-mədəniyyət abidələrinin tanıdılmasına yönəlmiş "Naxçıvan: dörd fəsildə" kitabının hazırlanmasında xidməti olan hər kəsin əməyi yüksək tərifə layiqdir.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

*Xəyalımın keçmişə açılan, “uşaqlıq çağları” adlandırdığım pəncərəsindən günün hər saatında, hər anında duyuram bu səsləri. Yaş ötdükcə, həyatın çətinlikləri ilə qarşılaşdıqca uşaqlıq çağlarımın əlçatmazlığını dərindən dərk etsəm də, qəlbim bu acı həqiqətlə barışmaq istəmir. Hər ötən gün daha da ürəkdən arzulayıram o illərə qayıtmağı, yaşananları yenidən yaşamağı. Gözlərimin həsrət dolu alovunu söndürə bilmir nə yağan qar, nə də ki yağış, könlümdən qopan hicran səslərini yenidən üzümə çırpır əsən külək, qopan tufan...*

# İllər arxasından gələn səslər...




Günəşin zərrin şəfəqlərinin ana təbiətə yaşamaq-yaratmaq ruhu verdiyi bir bahar səhərində keçirəm doğma kəndimin xatirəmdə dərin, unudulmaz izlər buraxan, bir vaxt daşı-kəsəyi ilə ayaqlarımı incitsə də, indi hamarlığı ilə gözoxşayan küçələrindən. Məsum duyğulu, pak düşüncəli uşaqlıq illəri yenidən xəyalıma gəlir qonaq. Canlanır gözlərim önündə həmyaşıdlarımla küçədə “Qaçdı-tutdu” oynamağımız, çınlayır qulağımda ağbirçək nənəmin “Ay bala, gəl evə, az “Qovalaqaç” oyna, axırda tərləyib xəstələnəcəksən” sözləri. İstəyirəm, əvvəlkitək yorulub əldən düşənədək oynayım, “Tərləyib xəstələnməyim önəmli deyil, yetər ki, uşaq şuxluxum, təravətim qayıtsın geri” sözləri ilə hayqırır könlüm. Döngəmizin başına çatar-çatmaz rastıma çıxır əllərində çörək dəstələri evə tələsən bir neçə xanım. Bu an, sanki duyuram nənəmin halal zəhmətlə qurduğu təndirdən ətrafa yayılan ləziz çörək ətrini. Düşür yadıma nənəmin səhər obaşdan qonşu qadınlarla birgə təndir salıb, çörək yapmağı, arabir mənə, “bala, o küfləni aç, təndirin nəfəsi kəsildi” deməsi, isti təndir çörəyi ilə biz nəvələrinə tutduğu dadı indi də damağımda qalan pendir dürməyini bağımızdan oğrun-oğrun qopardığımız yenicə qızaran pomidorla bir küncə çəkilib şən, deyə-gülə yeməyimiz, gün batana yaxın iy gedir, – deyə qonşu evlərə də təndir çörəyindən pay aparmağım. Qəlbimə yayılan munis duyğularla hiss edirəm oyunlar əsnasında dizimin, dirsəyimin sıyrılmasından yaranan ağrının xəfif sızıltısını. Necə də şirin gəlir bir zamanlar ağrı-acılar yaşadan o anlar indi. Çınlayır qulağımda var gücümlə vurduğum topun qırdığı şüşənin cingiltisi, həvəslənirəm babamın könlümə dəyməmək üçün, ay bala, olan işdir düzələr, deməsindən, düşür yadıma məhəlləmizdə uşaqlarla oynadığımız “Bənövşə” oyunu. Qurduğumuz bəndin daha da möhkəm olması üçün yoldaşımın əlindən bərk-bərk yapışmağım, qarşı bənddən birinin adını çəkib, onu caldıyə, mübarizliyə səsləməyim, sağlam rəqabətə qapılaraq həmyaşıdlarıma meydan oxumağım. “Nə qədər ki, hər kəs bir-birindən möhkəm yapışıb, bu bəndi heç kim qırıb keçə bilməz” fikrinə xəyalımda yenə inanıram, uşaqlıqdakı kimi. Xəyallar aləminin sehrindən qopmadan düşünürəm: Bənövşə oyunu ilə atalarımızdan miras qalan “Güc birlikdədir!” hikmətinin məğzi açılır, mahiyyəti sirayət edirdi biz uşaqların aləminə, maraq dünyasına. Özümüz də fərqinə varmadan təməli qoyulurdu gələcək inkişafımızın, formalaşırdı düşüncəmizdə yumruq kimi birlik, bərabərlik hissi, əzmi. Oyun həm əyləndirir, həm də düzgün tərbiyə edir, öyrədirdi bizi.

Məhəlləmizin hər qarışına ayaq basdıqca dilə gəlir şirin-şəkər xatirələr, qarışır bir-birinə illər arxasından gələn pıçıltılar: xatırlayıram, məhəllə yoldaşlarımla “Gizlənqaç” oynamağımızı. Gözlərim önünə gəlir həmyaşıdımın əlləri ilə gözünü bərk-bərk yumması, “Alma saraldı, gözüm qaraldı”, – deyib gözünü açanadək qaçıb xəlvəti yerdə gizlənməyimiz. Budur, o, gözlərini açaraq səksəkəli halda axtarır gizlənənləri. Yeri müəyyən olunan daha cəld tərpənərək həmin yerə birinci gəlir. Sonra həmyaşıdım yenidən yumur gözlərini. Beləcə, davam edir əyləncə dolu oyunumuz, aşılanır bizə hər işdə çevik, zirək, ayıq-sayıq davranmaq kimi üstün məziyyətlər. Böyüyüb yaşa dolduqdan sonra önümüzə çıxan maneələrə qarşı atdığımız addımlar, gördüyümüz işlər zamanı dərk edirik bu oyunun xarakterimizi möhkəmləndirdiyini.

Səhərin erkən çağından başlayırıq “Qəcəmədaş”a. Hərəmiz bir kənara çəkilib toplayırıq daşları bir-bir. Yığırıq əlimizə altı ədəd kiçik daş. Bir daşı yuxarı atanda yerə tökülür ovcumuzdakı digər daşlar. Sonra həmin daşı yenə yuxarı atıb, o, aşağı enənədək yerdəkiləri yığırıq bir-bir. Var gücümüzlə çalışırıq ki, havadakı daş yerə dəyməsin. Bu oyunla çevikləşib, cəldləşirik, diqqətimiz cəmləşir, fikrimiz qətiləşir. Hər günü bir imtahan olan həyat meydanına bənzədirəm “Qəcəmədaş”ı. Gərəkdir ki, hər işi vaxtlı-vaxtında, yubanmadan görəsən, atalarımız demişkən, bu günün işini sabaha qoymayasan. Əks-təqdirdə göydəki daşın yerə dəyməsi kimi, arzuların, ümidlərin də düşər suya.

Budur, hərəmiz əlimizdə xüsusi zövqlə yonub düzəltdiyimiz bir ağac parçası, “Çilingağac” oynamaq üçün yığışmışıq həmişəki məkanımıza. Öncə münasib yer tapır, qazırıq kiçik çala. Sonra başlayırıq oyuna. Çilingi havaya qaldırıb toxmağın arxasıyla vururuq irəli. Çiling havada ikən rəqibimiz çalışır ki, onu ya əli, ya da əlindəki toxmaqla vursun, yaxud tutsun. Çiling tutulur, vuran uduzur. Qalib gələn ürəkdən sevinir, uduzansa, əl atır cığallığa. Bax, beləcə, şən keçən oyunumuz öyrədir bizə hər işdə diqqətli, ehtiyatlı, dəqiq olmağı, qarşılaşdığımız məsələlərə daha həssas yanaşmağı, səhvə yol verməməkdən ötrü düzgün qərar verib, səlis davranmağı.

“Yeddidaş” oynamağımız canlanır xəyalımda. Aşılayır bizə bu oyun daşı daş üstünə qoymağın nə qədər çətin olduğunu, onu dağıtmağın isə an içində mümkünlüyünü. Xəyallar məngənəsində düşünürəm bircə anlıq. Məgər yaşadığımız həyat da belə deyilmi? Bacarığın, qabiliyyətin, zəhmətin hesabına illərlə qazandıqlarını, nail olduqlarını səhlənkar davranışla, yanlış hərəkətinlə, buraxdığın səhvlə itirirsən, bir neçə dəqiqəyə. Elə isə bu kiçik oyunun əhəmiyyəti həyat kimi “Böyük oyun”dan çıxartdığımız nəticədən bəlli olur. “Ağac-ağac” oyunu itigörmə, dəqiqlik və diqqət tələb edərdi bizdən, “Evcik-evcik”də özümüzə qurardıq “ev-eşik”, sanki ailə sahibi olardıq, öz balaca düşüncəmizlə idarə edərdik o “ailə”ni, “ortadaqaldı”da var gücümüzlə oyan-bu yana qaçaraq topdan yayınıb ortada qalmağa çalışardıq. Hələ küçə-bacadan topladığımız məftillərlə düzəltdiyimiz “müxtəlif markalı avtomobil”ləri deməyəm. Hərə əlində özünəməxsus “avtomobil”lə düşərdik tozlu-torpaqlı yolların canına. Aramızdakı rəqabətdən artardı əl qabiliyyətimiz, təkmilləşərdi düşüncəmiz, formalaşardı göz duyumumuz, estetik zövqümüz...

Uşaqlıq xatirələri ilə dolu, ayrılmaq istəmədiyim xəyalların əlindən məni o illərin canlı yadigarı, həmyaşıdım qoparır, əyləşib məhəlləmizdə söhbət salırıq ötənlərdən-keçənlərdən. Eh, uşaqlığımızın o qədər yaddaqalan məqamları vardır ki, xatırladıqca hey yada düşür... Bu oyunlarla çəkişib-bərkişərək daha möhkəm tellərlə bir-birimizə bağlanardıq, yaşadıqlarımız, qazandıqlarımız isə göründüyü kimi heç vaxt unudulmur, enişli-yoxuşlu həyat yollarında daim köməyimiz, dayağımız olur...

Bəli, artıq zaman qatarı sürətlə ötüb keçib, illər, fəsillər arxasında qalıb sevinc dolu məsum baxışlı, saf, təmiz duyğulu uşaqlıq çağlarım. Günü-gündən gözəlləşən kəndimizin ucu-bucağı görünməyən, tər-təmiz yollarına tamaşa etdikcə səssizlik, sakitlik tələtümə gətirir qəlbimdəki sual dolu hisslərimi, ayağımı əzən əvvəlki daş-kəsəyin yerini indi ürəyimi sıxan sükutun hayqırtısı zəbt edib. Heyifsilənirəm. Daha nə küçədə qaçan-tutan, bir-birinin əlindən bərk-bərk yapışıb birlik göstərən, bənd yaradan, ortadaqalan, çiling atan azyaşlı görmək olur, nə də uşaqları bu oyunlara həvəsləndirən, balacaların dünyasına toxunmadan bir kənardan xəlvətcə onları izləyən valideynləri. Artıq “ocağın közünü illərin qar-boranı çoxdan söndürüb, su qaynatmağa maraq da, görünür, elə o közlə sönüb gedib”, damalar cızmağa hövsələ qalmayıb, nəinki onun üzərindən ehtiyatla hoppanmağa cəhd. Nə gizlənən var, nə də axtaran, əl üstə kimin əli deyəni də tapammarsan... Bu səssizlik ağuşunda düşünürəm: Bəs niyə bir vaxtlar tozlu-torpaqlı küçələrdə oynayan biz uşaqların şən-şaqraq gülüşlərinin yerini indi səssizlik tutub? Cavab isə gün kimi aydındır. İndiki uşaqlar ya evdə valideynlərinin tövsiyəsi ilə mobil telefona aludə olub, ya da kompüter oyunlarına. Görəsən, valideynlər niyə cəmiyyətin gələcək inkişafına yönəlmiş bu taleyüklü məsələyə belə biganədirlər?! Axı onlara eyni laqeyd münasibət göstərilməyib, vaxtilə adını sadaladığım xalq uşaq oyunları sevə-sevə öyrədilib indiki valideynlərə. Bəs bir valideynlər özümüzə bircə dəfə də olsa, “axı biz vaxtilə gələcəyimizin sağlam təməllər üzərində qurulmasına söվq edən şirin-şəkər oyunlar oynamışıq, bu səbəbdən indi xatırlamağa, yada salmağa, balacalara danışmağa maraqlı uşaqlıq xatirələrimiz, anlarımız var, bəs övladlarımızın necə?” – sualını vermişikmi? Özümüzü övladlarımızın yerinə qoymuşuqmu? Gəlin, düşünək görək, bu gün kompüterdə, planşetdə, telefonda mənasız, dava-dalaş, aqressiya yaradan oyunlarla vaxt keçirən uşağın sabahı, təlim-tərbiyəsi necə formalaşacaq, onun gələcək nəsillərə danışmağa hansı maraqlı xatirəsi ola bilər? Kimsə demir ki, kompüteri, planşeti, mobil telefonu həyatımızdan çıxarıb bir kənara ataq, əsla yox. Təbii ki, müasir texnologiyaları öyrənməyimiz, gündəlik həyatımızda tətbiq etməyimiz inkişafımıza hesablanıb və zamanın tələbidir. Ancaq milliliyimizi, kimliyimizi yaşadan, sağlam həyat tərzi aşılayan uşaq oyunlarını da unutmaq olmaz. Əziz valideynlər, bircə anlıq illər arxasından gələn öz uşaqlıq xatirələrinizin səsinə qulaq asın və övladınızı o gözəl anları yaşamaqdan məhrum etməyin...

**Nail ƏSGƏROV**

## Yeni yaşıllıqlar salınıb, təmizlik işləri aparılıb



Həmişə olduğu kimi, aprelin 10-da keçirilən iməciliklər də yüksək səviyyədə təşkili ilə diqqəti çəkirdi. Həmin gün Naxçıvan Şəhər Su Təmizləyici Qurğu Kompleksinin yanındakı 2 hektarlıq yeni bağda 1300 meyvə ağacı, dairəvi avtomobil yolunun ətrafındakı 1,8 hektarlıq ərazidə bərpa məqsədilə 270 meyvə, 355 meşə və 65 həmişəyaşıl ağac əkilib, ahıl vətəndaşın evində təmizlik işləri aparılıb.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunun sakinləri də, əvvəlki iməciliklərdə olduğu kimi, əzmkarlıq nümayiş etdiriblər. İməcilikdə Naxçıvan-Sədərək magistral yolunun Maxta kəndi ərazisindəki 0,3 hektarlıq yeni salınmış bağda 120 meyvə ağacı əkilib, ərazi daşlardan təmizlənib, ağartma və suvarma işləri aparılıb. Zeyvə kənd yolunun sol hissəsində yeni meşə zolağı salınıb və 310 meşə ağacı əkilib.

Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Güznüt kəndinə gedən yolun kənarlarında bərpa məqsədilə 250 meşə ağacı əkilib, yaşıllıqlara aqrotexniki qulluq göstərilib.

Bağlar diyarı Ordubadda da iməciliklər mütəşəkkilliklə keçirilib, Bayraq Meydanının ətrafındakı 0,5 hektarlıq ərazidə 150 meyvə ağacı, 1,5 hektarlıq ərazidə 4500 qızılgül kolu, meyvə bağlarında bərpa məqsədilə 500 ting əkilib, üzüm bağında budama işləri aparılıb.

Culfa rayonunun sakinləri Yaycı düzündəki 0,3 hektarlıq ərazidə 300 üzüm tingi, Culfa şəhərindəki binaların ətrafında 100 meyvə və 100 həmişəyaşıl ağac əkib, digər yaşıllıq sahələrinə aqrotexniki qulluq göstəriblər.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Xok kəndi hissəsindəki 10 hektarlıq ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərilib, bərpa məqsədilə 50 ədəd həmişəyaşıl ağac əkilib.

Şahbuzlular Sələsüz-Türkeş kəndləri arasında yol kənarındakı 2,3 hektarlıq ərazidə 3 min üzüm tingi, Ayrınc kəndinə gedən yolun kənarlarına 1600 qızılgül kolu əkiblər.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun Dəmirçi kəndi hissəsindəki 1 hektarlıq yeni salınmış bağda 1000 meyvə, magistral yolun kənarlarında 650 gül kolu, Bayraq Meydanı ərazisində bərpa məqsədilə 50 həmişəyaşıl ağac və 1800 gül kolu, Heydərabad qəsəbəsində bərpa məqsədilə 150 meşə, 50 meyvə, 500 gül kolu əkib, yaşıllıqlara üzvi gübrə verilib və suvarılıb.

İməciliklərdə 18 min 925 nəfər iştirak edib. Ümumilikdə, 17170 olmaqla, 1065 meşə, 3490 meyvə, 265 həmişəyaşıl ağaclar, 9050 gül və bəzək kolları, 3300 üzüm kolu əkilib.

**Xəbərlər şöbəsi**

## Lisenziyalar təqdim olunub

Uzunoba Təlim-Məşq İdman Kompleksinin inzibati binasında məşqçilik kursunu uğurla başa vuran iştirakçılara lisenziyalar təqdim olunub. Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov çıxış edərək bildirib ki, idman sahəsində ixtisaslı kadrların hazırlanması, onların bilik və bacarıqlarının artırılması, təcrübəli mütəxəssislərin bu prosesə cəlb olunması məqsədilə ixtisasartırma kursları, taktiki-texniki seminarlar, aidiyyəti qurumlarla təcrübə mübadiləsi aparılır.

Naxçıvan Futbol Federasiyasının (NFF) sədr müavini Sakit Rzayev deyib ki, ötən dövr ərzində Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) ilə qurulan uğurlu əməkdaşlıq sayəsində məşqçi və hakimlərimizin futbol təhsili təmin olunub. Nəticədə, onların bilik və bacarıqları artıb, karyera baxışları müsbət mənada dəyişib. “C” kateqoriyalı məşqçi kursu peşəkarlıq yolunda ilkin mərhələdir.

AFFA-nın məşqçi kurslarının maarifləndirmə üzrə direktoru Aslan Kərimov kursun məqsəd və vəzifələrini iştirakçılara xatırladaraq deyib ki, uşaq futbolunda çalışan məşqçinin üzərinə böyük məsuliyyət düşür. Biz, ilk növbədə, cəmiyyətə futbolçu nümunəsində mənəvi-əxlaqi keyfiyyətlərə malik, Vətəninə, millətinə bağlı insan qazandırmalıyıq. AFFA-NFF əməkdaşlığı və bölgədə idmanın inkişafı üçün atılan addımlar sayəsində Naxçıvan futbolunun ildən-ilə inkişaf etdiyini bildirən Aslan Kərimov yeni yaradılan Uzunoba Təlim-Məşq İdman Kompleksinin gənc məşqçilər üçün faydalı olacağını deyib.

Sonra kursu müvəffəqiyyətlə bitirən iştirakçılara “C” kateqoriyalı məşqçi lisenziyası və diplomlar təqdim edilib.

Xatırladaq ki, AFFA-nın dəstəyi, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən kursa ötən ilin sentyabr ayında start verilib və fasilələrlə 3 modul şəklində icra olunub. Kursa muxtar respublikanın müxtəlif bölgələrindən 15 məşqçi qatılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Həsənova Günay Məhərrəm qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və “Naxçıvan” Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Dərvişlər kənd sakini Şirəliyev Telman Salman oğlunun adına olan JN-114A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Mahmudkəndində yaşamış Məmmədova Sura Məşədisadıq qızının adına olan JN-480A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 303